Ard-arda söylənən bəzi kəlimələr vardır ki, onları fərz namazlarından sonra deyən- və ya edən - ziyana uğramaz. Bu, otuz üç dəfə subhənallah, otuz üç dəfə əlhəmdulilləh və otuz dörd dəfə Allahu Əkbər deməkdir

Kə'b bin-Ucrədən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Ard-arda söylənən bəzi kəlimələr vardır ki, onları fərz namazlarından sonra deyən- və ya edən - ziyana uğramaz. Bu, otuz üç dəfə subhənallah, otuz üç dəfə əlhəmdulilləh və otuz dörd dəfə Allahu Əkbər deməkdir".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müəyyən zikrlərdən xəbər vermişdir ki, bunları söyləyən nə uduzar, nə də ki peşman olar. Əksinə, o, bu kəlimələrin savabına nail olar. Onlar bir-birinin ardınca gəlir və fərz namazından sonra deyilir. Bu zikrlər aşağıdakılardır: 33 dəfə "Subhənallah" demək , yəni Uca Allahı bütün nöqsanlardan münəzzəh etmək (uzaq tutmaq). 33 dəfə "Əlhəmdulilləh" demək. Bu, Allahı sevərək və təzim edərək, onu tam kamilliklə vəsf etməkdir. 34 dəfə "Allahu Əkbər" demək. Çünki Allah hər şeydən böyükdür, əzəmətli və qüdrətlidir.

http://sunnah.global/hadeeth/az/show/6259